# HİKMƏT VALEH OĞLU QULİYEV



## Filologiya elmləri doktoru
## Hikmət Valeh oğlu Quliyev haqqında
## MƏLUMAT

- Hikmət Valeh oğlu Quliyev 10 aprel 1985-ci ildə Zəngilan rayonunda anadan olmuşdur.
- 2002-2006-cı illərdə Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin bakalavr, 2006-2008-ci illərdə magistratura pillələrini fərqlənmə diplomları ilə bitirmişdir.
- Əmək fəaliyyətinə 2005-ci ildə AMEA Folklor İnstitutunda böyük laborant vəzifəsi ilə başlamış, müvafiq olaraq, kiçik elmi işçi, elmi işçi, böyük elmi işçi və aparıcı elmi işçi vəzifələrində çalışmışdır.
- 2010-2013-cü illərdə Bakı Dövlət Universitetinin Filologiya fakültəsində akademik məsləhətçi vəzifəsində işləmişdir.
- 2013-2025-ci illərdə AMEA Rəyasət Heyətinin elmi katibi vəzifəsində çalışmışdır.
- 2015-ci ildə AMEA Folklor İnstitutunda **"Azərbaycan folklorunda Müdrik qoca arxetipi"** mövzusunda dissertasiyasını uğurla müdafiə edərək filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsini almışdır.
- 2018-ci ildə folklorşünaslıq üzrə dosent elmi adına layiq görülmüşdür.
- 2024-cü ildə **"İnternet folkloru: nəzəri-metodoloji kontekst və folklorik məna yaradıcılığı"** mövzusunda filologiya elmləri doktoru dissertasiyasını uğurla müdafiə etmişdir.
- AR Prezidenti yanında Ali Attestasiya Komissiyasının 25.06.2026-cı il tarixli qərarı ilə **filologiya elmləri doktoru** elmi dərəcəsinə layiq görülmüşdür.

- AMEA prezidentinin 10 fevral 2025-ci il tarixli, 14 nömrəli Sərəncamı ilə AMEA Folklor İnstitutunun direktoru vəzifəsinə təsdiq edilmişdir.
- Ümumilikdə, 6 kitabın, respublikada və xaricdə nəşr olunmuş 60-a yaxın elmi məqalənin müəllifi və bir sıra respublika və beynəlxalq miqyaslı konfransların iştirakçısıdır.
- Nüfuzlu beynəlxalq bazalarda (**Web of Science, Scopus** və s.) indeksləşən jurnallarda 4 məqaləsi dərc olunmuşdur.
- 2023-cü ildən Xəzər Universitetində Azərbaycan humanitar təhsil sistemi üçün yeni bir fənn sahəsi olan "İnternet folkloru"nu magistratura pilləsində tədris edir.
- 2005-ci ildən Yeni Azərbaycan Partiyasının üzvüdür.
- Ulakbim Dergipark Elmi platformasında bir sıra xarici jurnalların Redaksiya heyətinin üzvü və Azərbaycan üzrə təmsilçisidir.
- 2016-2019-cu illərdə Azərbaycan Dövlət Televiziyası (AzTv) ilə AMEA-nın birgə layihəsi olan və 60 buraxılışı efirdə yayımlanan "Elm və innovasiya" elmi-publisistik proqramının redaktoru olmuşdur.
- Özbəkistan Respublikası Fənlər Akademiyası Əlişir Nəvai adına Dövlət Ədəbiyyat Muzeyinin "Ədəbi miras" jurnalının, Qırğızıstan Respublikası Manas Akademiyasının "Epos" jurnalının Redaksiya Heyətinin üzvüdür.

## Əsas elmi nəticə və yenilikləri:

- Azərbaycan folklorunda Müdrik qoca arxetipinin semantik strukturu və obraz paradiqmalarının müəyyənləşdirilməsi;
- Folklor mətnlərində arxetiplərin (Dədə Qorqud, Oğuz Kağan, Koroğlu, Molla Nəsrəddin) və onların sosial-mədəni təzahür formalarının (müdriklik institutu, ağsaqqal, seyid, ocaq, pir və s.) üzə çıxarılması;
- Qloballaşma, rəqəmsallaşma, virtuallaşma proseslərinin xalq mədəniyyətinə təsiri, sosio-texnoloji və texno-kulturoloji mühitdə folklorun təbiətinin araşdırılması, süni intellekt və folklor münasibətlərinin öyrənilməsi;
- İnternet folklorunun nəzəri-metodoloji problemləri çərçivəsində Azərbaycandilli virtual folklor mühitinin spesifikasının araşdırılması;
- Sosial-antropoloji kontekstdə folklorun müasir sosial-mədəni proseslərlə əlaqəsinin öyrənilməsi və Azərbaycan folklorşünaslığına yeni elmi-nəzəri və tətbiqi istiqamətlərin daxil edilməsi;
- Ənənəvi folklordan İnternet folkloruna keçiddə baş verən forma və məzmun dəyişikliklərinin öyrənilməsi, İnternet folklorunun spesifik xüsusiyyətlərinin üzə çıxarılması;
- Yeni texnokulturoloji və sosio-texnoloji şəraitdə yaranan rəqəmsal folklor resurslarının dinamik təbiətinin öyrənilməsi, İnternet folklorunun toplanılması, təsnifi və çoxparametrli analizi;

## Çap olunmuş kitabları:

1. Müdrik qoca arxetipinin semantik strukturu və paradiqmaları. Bakı: Elm və təhsil, 2016.
2. Folklorun funksional strukturu: multidissiplinar kontekst (Sərxan Xavəri və Səfa Qarayevlə birgə). Bakı: Elm və təhsil, 2016.
3. Virtual mühitdə folklor: ənənə və kommunikasiya. Bakı: Sabah, 2018.
4. Azərbaycan nağılları: obrazlar və funksiyalar (Səfa Qarayevlə birgə). Bakı: Savad, 2021.
5. Zəngəzur folkloru: kollektiv yaddaşdan metaforik düşüncəyə (Sərxan Xavəri və Səfa Qarayevlə birgə). Bakı: Elm və təhsil, 2023.
6. Zengezur: Mekandan Anlama Folklorun Semantiği. (Sərxan Xavəri və Səfa Qarayevlə birgə). Bakı: Elm və təhsil, 2023.

**Əlaqə məlumatları:**
**Xidməti tel.:** (+994 12) 492 93 14
**Elektron poçt:** hikmet.guliyev85@gmail.com, hikmat.guliyev@science.az, quliyevh@mail.ru
**Ünvan:** Bakı – 1000, İçərişəhər, 8-ci Kiçik Qala döngəsi, 31, Azərbaycan Milli Elmlər Akadmeiyası Folklor İnstitutu